**Nərmin Amal qızı ƏSƏDZADƏ**
Qərbi Kaspi Universiteti,
Psixologiya və Sosial iş kafedrasının magistrantı
E-mail: nerminasadzada@gmail.com

# MÜASİR SOSİAL PSİXOLOJİ YANAŞMALAR VƏ REABİLİTASİYA:YENİ METODLAR VƏ TEXNOLOGİYALARIN ƏLİLLİYİN REABİLİTASİYASINA TƏSİRİ

**Xülasə**

Bu məqalədə biz müasir sosial psixoloji yanaşmaların və innovativ texnologiyaların əlilliyi olan şəxslərin reabilitasiyasına təsirini araşdırmışıq. Əlilliyin yalnız fiziki tərəfləri deyil, həm də psixoloji, sosial və emosional təsirləri mövcuddur. Bu səbəbdən əlilliklə mübarizədə sosial psixoloji yanaşmaların əhəmiyyəti böyükdür. Məqalədə dünya üzrə tətbiq olunan yeni reabilitasiya metodları, xüsusilə texnoloji yeniliklər və müasir sosial psixologiyanın təsiri müzakirə edilir. Beynəlxalq təcrübələr və Azərbaycanda bu sahədəki vəziyyət araşdırılır, eyni zamanda mövcud yanaşmaların güclü və zəif tərəfləri vurğulanır. Əlilliyin sosial inteqrasiyasına dəstək verən metodlar və texnologiyalar arasında neyrofeedback, robotik texnologiyalar, virtual reabilitasiya və psixoterapevtik müalicə üsullarının təsiri diqqətə alınır. Qeyd edək ki, məqalə həmçinin, əlilliyi olan şəxslərin həyat keyfiyyətini artırmaq və onların cəmiyyətdəki rolunu gücləndirmək üçün tətbiq edilə biləcək yenilikçi sosial psixoloji yanaşmaları təqdim edir. Sonda Azərbaycanda bu sahədə mövcud boşluqları doldurmaq və əlillərin reabilitasiyasına dair daha effektiv metodların tətbiq olunması üçün təkliflər irəli sürülür.

**Açar sözlər**: sosial psixologiya, əlillik, reabilitasiya, müasir yanaşmalar, yeni metodlar, texnologiyalar

**UOT:159.9**
**DOİ:** https://doi.org 10.54414/TYFW7348

## Giriş

Müasir sosial psixoloji yanaşmalar əlliliyin yalnız bioloji və fiziki cəhətlərinə deyil, həm də bu insanların cəmiyyət tərəfindən necə qəbul olunduqlarına, hansı şəraitdə yaşadıqlarına və onların mənəvi inkişaflarına da diqqət yetirir [2,15(3),səh.92-107]. Azərbaycanın və dünyanın müxtəlif ölkələrində bu sahədə aparılan tədqiqatlar göstərir ki, əlilliyi olan şəxslərin reabilitasiya dövrü, həmçinin sosial inteqrasiya dövrü və psixoloji dəstək onların həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir [3,səh.47-56]. Lakin bu yanaşmaların hər birinin tətbiqinin fərqli nəticələrə gətirib çıxardığını görmək mümükündür. Dünya təcrübəsindəki yeniliklər, xüsusilə sosial psixoloji yanaşmalar və yeni texnologiyalar, əlilliyi olan şəxslərin reabilitasiyasına dair böyük irəliləyişlərə səbəb olmuşdur [4,21(1),səh.61-70]. Təəssüf ki, Azərbaycanda bu metodların tətbiqi tam olaraq inkişaf etməmişdir və müəyyən maneələr mövcuddur. Əlilliklə mübarizə, yalnız insanların fiziki məhdudiyyətlərini aradan qaldırmaqla kifayətlənməyib, həm də onların sosial həyatını, mənəvi vəziyyətini və psixoloji dəstəyini yaxşılaşdırmaqla mümkündür[1,32(4),səh.118-122]. Əlilliyin cavanlaşmasının artması, bu şəxslərin reabilitasiyasına dair yenilikçi metodlar və texnologiyaların tətbiqini zəruri edir. Bu məqalədə biz müasir sosial psixoloji yanaşmalar və reabilitasiya proseslərindəki yeni metodlar və texnologiyalar haqqında ətraflı məlumat verərək, dünyadakı təcrübələrə əsaslanaraq Azərbaycanda bu sahədə nələrin inkişaf etdirə biləcəyini və gələcək perspektivləri araşdıracağıq. Məqsəd Azərbaycanda reabilitasiya prosesini daha da inkişaf etdirmək və əlillərin həyat keyfiyyətini yüksəltməkdir.

## Əsas hissə

Sosial psixoloji yanaşmalar əlillərin həyatında cəmiyyətin təsirini anlamağa və sosial inteqrasiyasnın əhəmiyyətini vurğulamaya yönəlir. Sosial psixologiyanın əlillik sahəsindəki rolu böyükdür. Fikrimizcə, əlilliyi olan şəxslərin sosial psixoloji vəziyyəti reabilitasiya prosesində çox əhəmiyyətli

bir rol oynayır. Əlil statusu yalnız fiziki qüsurlardan ibarət deyil, həm də cəmiyyətin bu şəxslərə münasibəti, onların psixoloji vəziyyəti və sosial inteqrasiyası ilə əlaqədardır. Bu məsələlər yalnız fərdi müalicə ilə həll edilə bilməz. Sosial dəstək, psixoloji dəstək və motivasiya ilə əlillərin cəmiyyətdəki mövqelərini gücləndirmək və onların həyat keyfiyyətini yaxşılaşdırmaq mümkündür. Cəmiyyətin bu şəxslərə münasibəti, onların reabilitasıyasına çox təsir edir. Fikrimizcə, cəmiyyətin əlillərə qarşı münasibətinin dəyişməsi, əlillərin daha aktiv və sosial həyata qatılmalarını təmin edəcəkdir. Əlillik, yalnız fərdin fiziki vəziyyəti ilə bağlı deyil, həm də cəmiyyətin ona necə yanaşması ilə əlaqədardır. Qeyd edək ki, əlil insanları sosial və psixoloji baxımdan dəstəkləmək, onların inkişafı və reabilitasıyası üçün əsas addımlardan biridir.

Yeni yanaşmalar həm cəmiyyətin, həm də fərdin psixoloji inkişafını ön plana çıxarır. Bihaviorizm və nevroloji yanaşmalar kimi psixoloji nəzəriyyələr, əlil insanın sosial həyatına inteqrasiya olmasına daha dərin təsir göstərir [5,28(4), 145-150]. Müasir sosial psixoloji yanaşmalar cəmiyyətin əlil insanlara qarşı münasibətini dəyişdirmək, onlara sosial inteqrasiya və fərdi inkişaf imkanları yaratmaq məqsədini güdür. Əlilliyin sosial psixoloji yanaşmaları, bir çox inkişaf etmiş ölkələrdə artıq cəmiyyətin təkcə fiziki imkanlarına deyil, həm də sosial dəstəyə əsaslanan reabilitasiya proqramlarına əhəmiyyət verdiyini göstərir. Hal-hazırda əlil şəxslərin reabilitasiyası ön planda olsa da, psixoloji dəstək və sosial inteqrasiya sahəsində ciddi boşluqlar mövcuddur. Müasir yanaşmalar, əlil insanın yalnız fərdi bir hal olaraq yox, cəmiyyətin bir parçası kimi qəbul edilməsinin vacibliyini vurğulayır. Bu baxımdan, əlillərin sosial inteqrasiyasını dəstəkləyən proqramların hazırlanması və tətbiqi önəmlidir. Məsələn; sosial psixoloji yanaşmaların inkişaf etdiyi ölkələrdə (ABŞ, Yaponya,İsveç) əlillər üçün xüsusi təhsil proqramları, iş yerində dəstək sistemləri və daha geniş sosial xidmətlər yaradılaraq onların cəmiyyətə inteqrasiyasını təmin edir. Qeyd edək ki, bu proqramlar, əlil insanların həyat keyfiyyətini artırmaqla yanaşı, onları yalnız fiziki deyil, sosial və emosional baxımdan da gücləndirir.

Dünya ölkələrində istifadə olunan bir çox sosial psixoloji yanaşmalar, əlilliyi olan şəxslərin həyatını yaxşılaşdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məsələn; neurofeedback və virtual reallıq terapiyası kimi metodlar, əlillərin reabilitasiyasını sürətləndirən texnologiyalar arasında yer alır. Bu metodlar, beynin və bədən funksiyalarının daha yaxşı işləməsini təmin edir və əlilliyi olan şəxslərə psixoloji dəstək verir. ABŞ-da əlillər üçün reabilitasiya proqramları yalnız fiziki terapiya ilə məhdudlaşmır. Burada əlillərin psixoloji reabilitasiyasına da böyük önəm verilir. Sosial psixologiyanın əlilliyin reabilitasiyasında tətbiqi fiziki və tibbi reabilitasiya ilə paralel olmalıdır.

Bədənin hansısa hissəsini itirən şəxslərin reabilitasiyasının ən mühüm hissələrindən biri də idman və fiziki məşqlərdir. Məşqlər vasitəsilə, bədənin itirilmiş funksiyası digər orqanlar tərəfindən kompensasiya edilə bilər. İdman terapiyasının yalnız fiziki sağlamlığı yaxşılaşdırmaqla qalmayıb, həm də psixoloji vəziyyətə müsbət təsir etdiyini göstərən bir çox tədqiqatlar mövcuddur. Məsələn; əlillərin idmanla məşğul olması onların özünə güvənini artırır, sosial bacarıqlarını inkişaf etdirir və onların cəmiyyətdə daha fəal olmalarını təmin edir. İdman fəaliyyətləri əlillərə yalnız fiziki gücünü artırmağa deyil, həm də mənəvi cəhətdən daha güclü olmağa kömək edir. Məslən, idman vasitəsilə bir çox əlil, itirilmiş funksiyalarını başqa orqanların köməyi ilə kompensasiya edir, bu da onların özünə inamını artırır[13,29(3),128-137]. Bədənin hansısa hissəsi zədələnmiş və funksiyasını itirmiş bir çox insanlar, itirdikləri funksiyanı idman məşqləri ilə digər orqanların köməyi ilə bərpa etməyə nail olurlar. Paralampiya çempionatları və digər idman yarışları, əlillərin həyat keyfiyyətini artırmaq və onların cəmiyyətə inteqrasiyasını təmin etmək üçün böyük əhəmiyyət kəsb edir.

Dünyanın müxtəlif bölgələrində əlilliyi olan şəxslərin idmanda iştirakını dəstəkləyən bir sıra qruplar və idman növləri mövcuddur. Bu idman növləri, həmçinin paralimpik oyunlar vasitəsilə idmançılara dünya səviyyəsində öz bacarıqlarını göstərmək imkanı verir. Məsələn; səyyar arabada basketbol, səyyar arabada voleybol, görmə zəifliyi olanlar üçün tenis və futbol, paralimpik atletika, paracanoe, yelkənli idman kimi qruplar bu idman növlərinə daxil olan əlilliyi olan idmançılardan yalnız bir neçəsidir. Bu növlərdə iştirak edən şəxslər, özlərini fiziki və psixoloji baxımdan inkişaf etdirərək həm sosial, həm də şəxsi həyatlarında daha aktiv və müstəqil olurlar. Azərbaycan üçün

bu təcrübələrin tətbiqi çox mühüm əhəmiyyət kəsb edir. Hazırda Azərbaycanda əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası ilə bağlı müəyyən addımlar atılmasına baxmayaraq, onların idmana cəlb edilməsi və sosial fəaliyyətlərdə iştirak etməsi sahəsində bəzi çatışmazlıqlar mövcuddur. Bu sahənin inkişafı, həm əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasını gücləndirəcək, həm də onların həyat keyfiyyətini artıracaq. Təklif olaraq, Azərbaycanda da paralimpik oyunların, idman yarışlarının və digər idman növlərinin əlilliyi olan şəxslər üçün təşkil olunması təşviq edilməlidir. Məsələn; səyyar arabada basketbol və səyyar arabada voleybol kimi idman növləri Azərbaycanda da təşkil edilə bilər. Bu idman növləri, həm əlilliyi olan şəxslərin fiziki sağlamlığını yaxşılaşdıracaq, həm də sosial əlaqələrin möhkəmləndirəcəkdir. Paralimpik oyunlar və digər beynəlxalq idman yarışlarında iştirak, əlilliyi olan şəxslərə qlobal səviyyədə tanınma və uğur əldə etmə imkanı verir. Bu, həmçinin Azərbaycanda əlilliyi olan şəxslər üçün güclü bir motivasiya yarada bilər. Fikrimizcə, əlilliyi olan şəxslərin müxtəlif idman növlərinə cəlb edilməsi üçün xüsusi proqramlar inkişaf etdirilməlidir. Paralimpik idmançılar üçün xüsusi proqramlar inkişaf etdirilməlidir. Paralimpik idmançılar üçün təşkil ediləcək idman təlimləri, yelkənli idman, atletika, görmə zəifliyi olanlar üçün tenis kimi sahələrdə idman təlimçiləri və rəhbərləri hazırlamaq, həmçinin idman yarışlarının təşkili əlilliyi olan şəxslərin idmana cəlb edilməsində mühüm rol oynayacaqdır. Nəticə etibarilə, Azərbaycanda əlilliyi olan şəxslərin idmana cəlb edilməsi və onların paralampik oyunlarda və digər idman yarışlarında iştirak etməsi, yalnız onların fiziki inkişafını deyil, eyni zamanda mənəvi inkişaflarını və cəmiyyətdəki rolunu da gücləndirəcəkdir. Fikrimizcə, bu yanaşmaların tətbiqi Azərbaycanda əlillərin cəmiyyətə inteqrasiyası probleminin həllinə mühüm töhfə verəcəkdir.

İnternetdə əlilliyi olan şəxslər üçün özünə kömək və motivasiya tapmaq üçün bir platforma yaratmaq faydalı olar. Bu platformada müxtəlif sosial psixoloji məsləhətlər, motivasiyaedici videolar və təcrübə paylaşma imkanları təqdim edilə bilər. Daha sonra əlillərin idmanla məşğul olması onların özünə inamını artırır və həm fiziki, həm də psixoloji reabilitasiyaslarını təmin edir. Paralimpiya idmançıları ilə bağlı təcrübələrin müsbət nəticələri nəzərdən keçirilməlidir. Əlillərin sosial izolyasiyasını aradan qaldırmaq, cəmiyyətə inteqrasiya etmək üçün xüsusi sosial xidmətlərin yaradılması çox vacibdir. İctimai işlərə qatılmaq, könüllü fəaliyyətlərdə iştirak etmək əlillərin sosial həyatına müsbət təsir göstərir.

Əlilliyi olan şəxslərin reabilitasiyasının ən son inkişafı müasir texnologiyaların və innovativ metodların tətbiqi ilə əlaqədardır. Bu yeni yanaşmalar, fiziki və psixoloji reabilitasiya proseslərini daha sürətli və effektiv edir. İnnovativ texnologiyalar və yeni metodlar əlillərə həyat keyfiyyətini artırmağa kömək edir və onların cəmiyyətə inteqrasiyasını asanlaşdırır. Bu metodlardan bəziləri aşağıda sadalanalardır.

Virtual reabilitasiya proqramları - əlillərin evdə və ya klinikada müxtəlif fizoterapiya və psixoterapiya seanslarına qatılmalarını təmin edən onlayn proqramlardır. Bu proqramlar, əlillərin müalicə və reabilitasiya prosesində daha aktiv olmalarına, fiziki və psixoloji vəziyyətlərini idarə etmələrinə kömək edir. Eyni zamanda, sosial bacarıqların inkişafı üçün xüsusi proqramlar təqdim edilir ki, bu da onların sosial mühitə uyğunlaşmasını sürətləndirir. Məsələn; Avropada və ABŞ-da istifadə olunan "Tele-rehabilitation" (uzaqdan reabilitasiya) proqramları, əlillərin evdən çıxmadan da müalicə və reabilitasiya almasını təmin edir. Bu, xüsusilə əlilliyin ağır formalarından əziyyət çəkən şəxslər üçün çox vacibdir. Tele-reabilitasiya, əlillərə yalnız fiziki reabilitasiya təlimləri deyil, həmçinin psixoloji dəstək və sosial bacarıqların inkişafı üzrə proqramlar təklif edir [6, səh.7,12]. Virtual Reality rehabilitation in Stroke Patients adlı bir tədqiqat, müayinə olunan iştirakçıların beyin zədələnmələrinə bağlı funksional bərpa proseslərini sürətləndirmək üçün virtual reallıq texnologiyalarının istifadə edildiyini göstərir. Beləliklə, əlillər evdən çıxmadan öz müalicə seanslarını qəbul edə bilirlər. Almaniya və İsveçdə əhalinin müxtəlif hissələri, xüsusilə yaşlı və əlil şəxslər üçün uzaqdan tibbi xidmətlərin tətbiqi geniş yayılıb. Tele-reahabilitation proqramları ilə əlillər öz müalicə seanslarına evdən qatılaraq, müxtəlif təlim və proqramlara uyğunlaşa bilirlər. Bu metod yalnız fiziki terapiya deyil, həm də psixoloji dəstək, dərslər və sosial bacarıqların inkişafı üzrə müxtəlif proqramları əhatə edir [7,49(4),465-474]. Müsbət cəhətləri ondan ibarətdir ki, əlillər evdən çıxmadan müalicə ala bilirlər. Uzaq bölgələrdə

yaşayan, ya da fiziki olaraq hərəkət etmək də çətinlik çəkən şəxslər üçün rahatlıq yaradır. Klinik ziyarətlər və fiziki malicə üçün xəstəxanalara getmək lazım olmadığından, bu üsul daha sərfəli ola bilər. Mənfi cəhətlərinə gəldikdə isə bəzi bölgələrdə internet bağlantısının zəifliyi və ya texnoloji infrastrukturun çatışmazlığı, bu metodların tətbiqinə əngəl ola bilər. Uzaqdan müalicə proqramları bəzən xəstənin həkim terapevt ilə birbaşa qarşılıqlı əlaqəsini məhdudlaşdırır ki, bu da bəzən əks təsir göstərə bilər.

Robotik Reabilitasiya Texnologiyaları - robot texnologiylarının reabilitasiya sahəsində istifadəsi, əlil şəxslərin bərpa prosesini sürətləndirən və təkmilləşdirən müasir bir yanaşmadır. Robotik qurğular, əlillərə müstəqil şəkildə fiziki hərəkətlər etməyə kömək edir və onların fiziki gücünü artırır. Robot texnologiyaları həmçinin klinikada fərdi terapiya seanslarının optimallaşdırılmasını təmin edir. Robotik reabilitasiya, xüsusilə ABŞ və yaponiya kimi inkişaf etmiş ölkələrdəə geniş şəkildə tətbiq olunmağa başlanıb. Məsələn, Yaponiya robot texnologiyalarını əlillərin bərpası və fiziki funksiyalarını gücləndirmək üçün effektiv şəkildə istifadə edir. Xüsusilə “Hal” adlı robot, müxtəlif fiziki problemləri olan şəxslərə kömək edir. Hal robotu, hərəkət qabiliyyətini məhdudlaşdıran insanlar üçün dizayn edilmiş bir robotdur və onun əsas funksiyası, xəstəyə hərəkət etməyə kömək edərək, onların reabilitasiya müddətini sürətləndirir[8,səh.11,36]. Almaniya isə robotik reabilitasiya texnologiyaları, xüsusilə onurğa və beyin zədələnmələrindən sonra bərpa prosesi üçün istifadə olunur. Klinikalarda istifadə olunan robotlar, xəstələrə müstəqil şəkildə gəzmək, əlləri və ayaqları ilə funksional hərəkətlər etməyə kömək edir. Bu texnologiya, fiziki terapiya ilə birləşdirilərək əlillərin bərpa prosesini sürətləndirir və müalicə metodlarının daha effektiv olmasına kömək edir. Müsbət cəhətləri ondan ibarətdir ki, robotlar əlillərin fiziki vəziyyətlərini gücləndirərərk, onların hərəkət etmə qabiliyyətini artırır. Robotik texnologiyalar daha sürətli və təkrarlana bilən müalicə proqramları təklif edir. Robotik reabilitasiya xəstənin həm fiziki həm də psixoloji sağlamlığını yaxşılaşdırır, çünki bu prosesin bir hissəsi sosial mühitə adaptasiyanı sürətləndirir. Mənfi cəhətləri ondan ibarətdir ki, robot texnologiyalarının tətbiqi yüksək xərclərə səbəb olur ki, bu da bəzi xəstələr üçün əlçatmaz ola bilər. Robotların səhv işləməsi və ya texniki problemlər yaşaması, xəstələrin sağlamlğına zərər verə bilər.

Neyrofeedback - beynin biofeedbacki texnologiyası, beyin dalğalarını izləyərək və təhlil edərək, beynin funksiyalarını təkmilləşdirmək üçün istifadə olunan bir müalicə metodudur. Bu texnologiya, beyindəki elektrik fəaliyyətini izləyərək, insanlara beyin dalğalarını optimallaşdırmaq və onların psixoloji və fiziki vəziyyətlərini yaxşılaşdırmaq məqsədini güdür. Neyrofeedback terapiyası, müxtəlif psixoloji və nevroloji problemlərin müalicəsində, eləcə də əlillərin reabilitasiyasında geniş tətbiq olunur. Neyrofeedbackin əsas məqsədi beyin dalğalarının optimal səviyyələrə çatdırılmasıdır. Beynin müxtəlif bölgələrindəki fəaliyyətin tənzimlənməsi, anksiyetə, stress, diqqət pozğunluqları, yuxu problemləri, beyin zədələnmələri kimi bir sıra psixoloji və fizioloji vəziyyətlərin müalicəsinə kömək edir. Bu texnologiyanın əlillik reabilitasiyasında tətbiqi, həm psixoloji, həm də fiziki prosesini dəstəkləyir.

Neyrofeedback terapiyasının əlillərin reabilitasıyasındakı rolu bir sıra ölkələrdə də müsbət nəticələr əldə edilmişdir. ABŞ və Avropada xüsusilə İsveç, Almaniya və Böyük Britaniyada neyrofeedbcak müalicəsi beynin funksional reabilitasiyası üçün istifadə edilir. Məsələn, ABŞ-da, müxtəlif nevroloji və psixoloji xəstəliklərdən sonra reabilitasiya prosesi üçün neyrofeedbackin istifadəsi geniş yayılmışdır. Beyin zədələnməsi və sinir sistemi xəstəlikləri olan şəxslər neyrofeedback vasitəsilə beyin fəaliyyəətini optimallaşdırmaq və bu şəkildə daha sürətli bərpa olmaq imkanı əldə edirlər. Almaniyada isə neyrofeedback, demans, diqqət pozğunluğu (ADHD), travma sonrası stress pozğunluğu (PTSD) kimi xəstəliklərin müalicəsində geniş istifadə olunur. Hətta bu metod, əlilliklə bağlı müalicə prosesində çox faydalı olmuşdur. ABŞ-da neyrofeedback, beyin zədələnməsi sonrası reabilitasiya müddətini sürətləndirmək və beyindəki funksiyaları yenidən bərpa etmək üçün istifadə edilir [9,15(3),187-198].

Neyrofeedbackin əlillər üzərindəki təsiri, həm psixoloji, həm də fiziki bərpa prosesinə müsbət təsir edir. Bu texnologiya, əlillərdəki depressiya, anksiyetə, stress və travma sonrası pozğunluqları həll etməklə yanaşı, onların motor bacarıqlarını bərpa etməyə də kömək edir. Xüsusən, neyrofeedback terapiyasının mərkəzi sinir sistemi və beynin

işini optimallaşdırması, əlillikdən sonra bərpa prosesində yüksək nəticələrə səbəb ola bilər. Beyin zədələnmələri və onurğa zədələnmələri kimi fiziki əlilliklərdə neyrofeedback, sinir hüceyrələrinin fəaliyyətini tənzimləyərək, fiziki hərəkətləri bərpa etməyə kömək edir. Müsbət cəhətlərinə gəldikdə isə, Neyrofeedback ən böyük üstünlüklərindən biri, onun qeyri-invaziv və təhlükəsiz bir metod olmasıdır. Hər hansı bir əməliyyat və ya dərman istifadəsi olmadan beyin funksiyalarını düzəltməyə kömək edir. Neyrofeedback, əlillərin psixoloji vəziyyətini yaxşılaşdırır. Məsələn; depressiya, təşviş və stress kimi problemlərlə mübarizədə effektivdir. Beyin funksiyalarını optimallaşdırmaq, fiziki hərəkətlərin inkişafını da dəstəkləyir. Bu, əlillərin fiziki bərpasında əhəmiyyətli rol oynayır. Mənfi cəhətləri isə neyrofeedbackin hər kəs üçün eyni dərəcədə təsirli olmaması mümkündür. Xüsusilə bəzi əlillər bu müalicəyə uyğun gəlməyə bilər. Neyrofeedback müalicəsi mütəmadi olaraq həyata keçirilməlidir, bu da bəzi xəsətələr üçün çətinlik yarada bilər. Neyrofeedbackin tətbiqi yüksək texnoloji avadanlıq tələb edir və bu da xidmətin yüksək maliyyətini artırır.

Yeni texnologiyalar, xüsusilə virtual reallıq (VR) və dijital terapiya tətbiqləri (məsələn, mobil tətbiqlər vasitəsilə tətbiq olunan reabilitasiya təlimləri), əlillikdən əziyyət çəkən şəxslərin müalicə və reabilitasiya proseslərini daha asan və effektiv hala gətirə bilər. Təklif olaraq interaktiv mobil tətbiqlər yaradılaraq, əlillər və əlil riskində olan gənclər üçün xüsusi təlimatlarla yanaşı, həm də real vaxtda neyrofeedback verilməsi təklif oluna bilər. Məsələn, bir tətbiq istifadəçini VR vasitəsilə xüsusi mühitə yerləşdirərərək, həm fiziki, həm də psixoloji reabilitasiya məqsədilə fərdiləşdirilmiş təlimlər təkliflər verilə bilər. Bununla insanlar reabilitasiya prosesini həm də ev şəraitində, daha rahat şəkildə həyata keçirə bilərlər. Müsbət tərəflərinə gəldikdə isə əlilliyin fərdi təyinatlı müalicəsi, evdə reabilitasiya, sosial baxımdan daha az tənqid olunan mühitdə bərpa, texnologiyaların müasir tətbiqi. Mənfi tərəfləri isə əlavə xərc və texnoloji məlumatların çatışmazlığıdır. Əlillik hallarında psixoloji dəstəyin əhəmiyyəti çox böyükdür. Lakin sosial psixoloji dəstəklərdən biri olan psixoterapevtik yanaşmalar sadəcə ümumi qrup terapiyası ilə kifayətlənə bilməz. Təklif olaraq fərdi psixoterapiya yanaşmaları ilə paralel olaraq, sosial psixoloji dəstəyi virtual terapevtlər vasitəsilə (yəni, Al və chatbotlar istifadə edərək) inkişaf etdirmək mümkündür. Bu texnologiya əlillərin özlərini daha az təcrid olunmuş və daha çox dəstəklənmiş hiss etmələrini təmin edər. Müsbət tərəfləri sosial mühitdən kənarda olan, özünə qarşı daha çox mənfi fikir formalaşdıran insanlar üçün güclü dəstək, həddindən artıq xərc olmadan terapiya imkanıdır. Qeyd edək ki, internetin və texnologiyaların çatışmazlığı olan ərazilərdə bu yanaşmanın tətbiqi çətin ola bilər.

İnsanların reabilitasiyası təkcə tibb mütəxəssisləri ilə məhdudlaşmamalıdır. Təklif olaraq fərqli sahələrdən gələn mütəxəssislərin bir araya gəlməsi, o cümlədən psixoloqlar, fizioterapevtlər, sosial işçilər və yeni texnologiyalar üzrə ekspertlər əlilliyin qarşısını almaq və reabilitasiya prosesini sürətləndirmək məqsədilə birgə işləyə bilərlər. Bununla yanaşı, bu komandalar, şəxsləri yalnız fizioloji deyil, həm də sosial emosional və intellektual olaraq da bərpa etməyə yönəlmiş yenilikçi və mövcu problemə köklənmiş proqramlar yarada bilərlər. Müsbət tərəfləri mütəxəssislərin birgə çalışması, kompleks yanaşmanın tətbiqi, daha yaxşı nəticələrdir. Mənfi tərəfləri isə koordinasiya çətinlikləri və belə bir əməkdaşlığın təmin edilməsi üçün əlavə resurslar və vaxt tələb olunmasıdır.

Əlillərin sosial reabilitasiyasını və inkişafını təmin etmək üçün müasir yanaşmalardan biri, əlil qruplarının xüsusi cəmiyyətlər şəklində təşkil edilməsidir. Bu cəmiyyətlər müxtəlif əlillik kateqoriyalarına uyğun olaraq, fiziki və ya psixoloji çətinlikləri olan fərdlərin bir araya gəlməsi üçün nəzərdə tutulur. Belə cəmiyyətlərdə mentor və ya rəhbər rolunu üstlənən bir şəxs, qrup üzvlərinin inkişafını izləyərək onlara rəhbərlik edə bilər. Məsələn; dağınıq skleroz əlilləri kimi xüsusi qruplar üçün təcrübəli bir mentorun rəhbərliyi altında fəaliyyət göstərən cəmiyyətlər təşkil edilə bilər. Zamanla monotonlaşan reabilitasiya prosedurlarına yeni nəfəs və motivasiya mənbəyi olacağı düşünülür. Bu cəmiyyətlərin məqsədi yalnız əlillərin sosial bacarıqlarını inkişaf etdirmək deyil, həm də onların psixoloji vəziyyətlərini dəstəkləməkdir. Qeyd edək ki, mentorlar əlilləri qrup şəklində yığaraq, onlara müxtəlif sosial psixoloji və peşə təlimləri təqdim edə bilər. Eyni zamanda rəhbər tərəfindən təşkil edilən iş və sosial fəaliyyətlər, əlillərin həyat keyfiyyətini artıraraq, onlara cəmiyyətdə daha fəal iştirak etmək üçün stimul

verəcəkdir. Fikrimizcə, bu yanaşma, həm də cəmiyyətin digər üzvləri ilə qarşılıqlı əlaqələrin qurulmasına kömək edəcək, sosial təcrid olunmalarını azaldılacaqdır.

**Nəticə**

Bu məqalədə biz əlillərin reabilitasiyasına müasir sosial psixoloji yanaşmalar və yeni texnologiyaların təsirini incələyərək, bu yanaşmaların cəmiyyətə və əlillərin özlərinə necə müsbət təsir göstərdiyini göstərdi. Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası, onların yalnız fiziki yox, həm də psixoloji və sosial baxımdan gücləndirilməsi, reabilitasiya prosesinin effektivliyini artıran əsas amillərdəndir. Əlillərin bərpa prosesinə yalnız tibbi müalicə deyil, həm də psixoloji dəstək verən və sosial yardım metodlarının daxil edilməsi onların cəmiyyətdə daha fəal iştirak etmələrini təmin edir[10]. Sosial psixoloji yanaşmaların və texnoloji innovasiyaların birləşməsi, əlillərin reabilitasiyası sahəsində ciddi inkişaflara səbəb ola bilər, çünki bu yanaşmalar onların sosial, emosionalvə psixoloji vəziyyətlərini nəzərə alaraq, bütünlüklə reabilitasiya prosesinə töhfə verir. Əlillərin özlərinin daha müstəqil həyat sürmələri, cəmiyyətlə daha sıx əlaqələr quraraq ictimai həyata inteqrasiya etmələri bu yanaşmaların tətbiqi ilə mümkündür [11,44(1),56-65]. Yeni metodlar, texnologiyalar və yanaşmalar sayəsində əlillərin reabilitasiyası daha müasir və effektiv bir şəkildə həyata keçirilə bilər. Bu sahənin inkişafı, həm əlillərə, həm də cəmiyyətə faydalı olacaq, çünki əlillərin cəmiyyətdəki rolu və onların həyat keyfiyyəti yüksələcəkdir. Eyni zamanda, sosial dəstək qruplarının və qrup terapiyasının rolu da əlillərin sosial izolyasiyasını azaltmaq və onların psixoloji vəziyyətlərini yaxşılaşdırmaqda əhəmiyyətlidir [12,37(2), 85-92].

## ƏDƏBİYYAT SİYAHISI

1 Qabonov A. (2018). Patoloji proseslərin inkişafının profilaktikası. Psixoloji Araşdırmalar Jurnalı, 32(4), səh. 118-122.

2. Zaxorov I. (2019). Nevroza və reabilitasiya metodu. Psixoterapiya və Sosial Psixologiya, 15(3), səh. 92-107.

3. Hacay Əliyar Əkbər Quni (2020). Əlilliyin sosial psixoloji aspektləri. Psixologiya və Reabilitasiya Kitabları, səh. 47-56.

4. Krasnov S. (2021). Əlillərin reabilitasiyasının innovativ metodları. Beynəlxalq Psixoloji Araşdırmalar, 21(1), səh. 61-70.

5. Bihaviorizm və əlillik reabilitasiyası," (2019). Journal of Behavioral Psychology, 28(4), 145-150.

6. Rizzo A. S. et al. (2010). Virtual reality therapy: An effective tool for rehabilitation in physical therapy. Journal of NeuroEngineering and Rehabilitation, 7, 12.

7. Cottrell M. A. et al. (2012). Tele-rehabilitation for people with stroke: A systematic review. Journal of Rehabilitation Research and Development, 49(4), 465-474.

8. Yamaguchi T. et al. (2014). Robotic exoskeletons for rehabilitation of the physically impaired: Review of current systems and techniques. Journal of NeuroEngineering and Rehabilitation, 11, 36.

9. Hammond D. C. (2011). Neurofeedback: The new era of brain training. Journal of Neurotherapy, 15(3), 187-198.

10. Smith J. & Jones A. (2021). Rehabilitation of Persons with Disabilities: A Psychological Perspective. Oxford University Press.

11. Green S. (2022). Psychosocial aspects of disability rehabilitation: Challenges and innovations. Disability and Rehabilitation, 44(1), 56-65.

12. Miller R. & Johnson P. (2020). The role of social support and group therapy in disability rehabilitation. Journal of Social Psychology, 37(2), 85-92.

13. Shannon M. & Dillon J. (2020). Physical Rehabilitation through Sport: A Psychological Perspective Journal of Rehabilitation Psychology, 29(3), 128-137.

**Narmin Amal gizi ASADZADA**
Master's student at the Department of Political Science, Psychology and Social Work,
Western Caspian University
Email: nerminasadzada@gmail.com

**MODERN SOCIAL PSYCHOLOGICAL APPROACHES AND REHABILITATION: IMPACT OF NEW METHODS AND TECHNOLOGIES ON DISABILITY REHABILITATION**

**Summary**

This article examines the impact of modern social psychological approaches and innovative technologies on the rehabilitation of persons with disabilities. Disability has not only physical and psychological aspects, but also psychological, social and emotional effects. The damage of social psychological approaches in the struggle with this disability is great. New rehabilitation methods, technological innovations and the influence of modern social psychology are discussed in the article. Experiences and these trials in Azerbaijan are examined, while the strengths and weaknesses of existing ones are highlighted. Among the methods and technologies that support the social integration of disability, the effects of neurofeedback, robotic technology, virtual rehabilitation and psychotherapeutic treatment methods are taken into account. It should be noted that, in addition, it presents innovative social psychological approaches that are used to enhance the quality of life of people with hands and their social role. In the end, proposals are made to fill these usage gaps and apply more effective methods for the rehabilitation of disabled people in Azerbaijan.

**Key words:** social psychology, disability, rehabilitation, modern approaches, new methods, technologies.

**Нармин Амаль кызы АСАДЗАДЕ**
Магистрант кафедры Психологии и Социальной работы
Западно-Каспийского университета
E-mail: nerminasadzada@gmail.com

**СОВРЕМЕННЫЕ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ПОДХОДЫ И РЕАБИЛИТАЦИЯ: ВЛИЯНИЕ НОВЫХ МЕТОДОВ И ТЕХНОЛОГИЙ НА РЕАБИЛИТАЦИЮ ИНВАЛИДОВ**

**Резюме**

В данной статье рассматривается влияние современных социально-психологических подходов и инновационных технологий на реабилитацию лиц с ограниченными возможностями. Инвалидность имеет не только физические и психологические аспекты, но также психологические, социальные и эмоциональные последствия. Вред социально-психологических подходов в борьбе с этой инвалидностью велик. В статье обсуждаются новые методы реабилитации, технологические инновации и влияние современной социальной психологии. Рассмотрен опыт и эти испытания в Азербайджане, а также выделены сильные и слабые стороны существующих. Среди методов и технологий, поддерживающих социальную интеграцию инвалидов, учитываются эффекты нейробиоуправления, роботизированных технологий, методов виртуальной реабилитации и психотерапевтического лечения. Следует отметить, что, кроме того, представлены инновационные социально-психологические подходы, которые используются для повышения качества жизни людей с руками и их социальной роли. В итоге делаются предложения по восполнению этих пробелов в использовании и применению более эффективных методов реабилитации инвалидов в Азербайджане.

**Ключевые слова**: социальная психология, инвалидность, реабилитация, современные подходы, новые методы, технологии.

**Daxil olub:** 20.02. 2025